*AMEA Müqayisəli ədəbiyyatşünaslıq, 2023, № 2* *ISSN 2663-4414*
*Səhifə: 153-157* *E-ISSN 2709-0762*
*https://doi.org/10.59849/2663-4414.2023.2.153*

# Əziz Nesinin idman mövzusunda yazdığı satiralarında tənqid hədəfləri

**Maya Həsənli**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: mayaaxundova93@gmail.com
ORCID: https://orcid.org/0009-0002-4535-7831

**Xülasə.** Əziz Nesin türk nəsrinin dünya ədəbiyyatı tarixinə bəxş etdiyi ən məşhur gülüş ustalarından biridir. Satirik və yumoristik əsərlərində dövrünün naqisliklərini qələmi vasitəsilə tənqid obyektinə çevirmiş, mənsub olduğu cəmiyyətin inkişafı üçün yarım əsrdən çox fəaliyyət göstərmişdir. Yazıçının cəmiyyətdə tənqid hədəfi kimi seçdiyi sahələrdən biri də sağlamlıq mənbəyi olan idmana, xüsusilə də futbola olan azarkeşliyin mənfi cəhətləri olmuşdur. Məqalədə Əziz Nesinin çoxsahəli mövzularından biri olan idman, əsasən də futbol azarkeşliyinin mənfi cəhətləri araşdırılmışdır. Araşdırma işində idmanın yararlı bir sahə, sağlamlığa dair faydalı bir məşğuliyyət olmasından çıxıb, zərərli xəstəlik halına gəlməsi Əziz Nesinin qələmə aldığı "İdmançı insanlarıq, vəssəlam", "Uçuruma gedirik", "Yarmarka qapıçısı", "Həmyerlilər matçda", "Vur-tut bircə Qədri", "Çox vacib işi var", "Üç aşağı, beş yuxarı", "Torları cıran oraq Altan", "Kötək yeməkdən doymuram" hekayələrində hansı şəkildə tənqid hədəfinə çevrilməsi tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** Əziz Nesin, satira, yumor, tənqid, idman, futbol

**Məqalə tarixçəsi:** göndərilib – 15.11.2023; qəbul edilib – 24.11.2023

# Targets of criticism in Aziz Nesin's satires on sports

**Maya Hasanli**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: mayaaxundova93@gmail.com
ORCID: https://orcid.org/0009-0002-4535-7831

**Summary.** Aziz Nesin, renowned worldwide as a humorist in Turkish prose, skillfully used satire and humor in his works to highlight and critique the flaws of his era. He dedicated his efforts to the advancement of the society to which he belonged to for more than half a century. One of the focal points for criticism in society that the writer targeted was the negative facets of sports, particularly football, despite its status as a source of health. The article delves into one of Aziz Nesin's multifaceted subjects, namely sports, with a primary focus on football. The research work examines how sports, originally viewed as a beneficial pursuit promoting health, transformed into a harmful obsession, becoming a target of criticism in the stories titled "We are sportsmen and that's it", "Towards to Abbys", "The fair keeper", "Compatriots in the match", "In all only Qadri", "He has a very important job", "More and less", "Altan, the reaping-hook tearing the nets", "I never tire of drubbing" penned by Aziz Nesin.
**Keywords:** Aziz Nesin, satire, humor, criticism, sport, football

**Article history:** received − 15.11.2023; accepted − 24.11.2023

## Giriş / *Introduction*

Əziz Nesin 50 ildən çox türk ədəbiyyatına xidmət etmiş, bu yolda öz təbirincə desək, “barmaqları qələmə dönmüşdür” (Nesin, 2015, s. 119). Əziz Nesin xalqını sevən təəssübkeş ziyalı olaraq yaradıcılığında hər üç ədəbi növün janrlarından yararlanmış, əsərlərində onu narahat edən çoxşaxəli məzmun dairəsi müşahidə edilmişdir.

Əziz Nesin hər zaman xalqını, millətini sevmiş və ömrü boyu özünü türk xalqına borclu hiss etmişdir. Uşaqlıq illəri Türkiyənin olduqca ağır, çətin sınaqlarla dolu olan bir dövrünə, Birinci Dünya müharibəsinin ən qızğın illərinə təsadüf etmiş, yoxsul ailədə maddi sıxıntılarla böyümüşdür. Əziz Nesin xatirələrində və müsahibələrində dəfələrlə təhsil ala bilməsinə görə özünü hər zaman xalqına borclu hiss etdiyini bildirmişdir. Bütün həyatını ona təhsil almaq, oxumaq imkanı verən xalqına olan borcunu ödəməyi həyatının əsas məqsədinə çevirmişdir. “Kim idi məni oxudanlar? Özləri oxuya bilməyən, övladlarını oxuda bilməyən yoxsul insanlar. Onların ödədiyi vergilərlə mən yedim, içdim, geyindim və oxudum... Bu borc ödənməz bir borcdur. Amma ödəməyə çalışmaq lazımdır. Ona görə də mən bu borcu öz ölçümlə, öz gücümlə ödəməyə çalışıram. Bunun üçün də yazıram, yazıram, yazıram...” (Nesin , 2017, s. 268).

Əsərlərində yaşadığı dövrün sosial topoqrafiyasını çəkmiş (Andaç, 2015, s. 111) satirik ustadın yaradıcılığında idman mövzusu, cəmiyyətdə idman, xüsusilə futbol azarkeşliyinin mənfi tərəfləri ayrıca bir xətt kimi keçməkdədir.

## Əsas hissə / *Main Part*

Əziz Nesinin düşüncələrinin formalaşması yaşadığı maddi sıxıntılı uşaqlıq illəri, atasız uşaqlar üçün olan “Darüşşəfəqə” ibtidai məktəbi və Qülləli Hərbi Liseyində təhsil aldığı illərdən başlamışdır. Yazıçı yaşadığı çətin uşaqlıq və gənclik illərinə, ona dəstək verən yoxsul insanlara, vətəninə hər zaman özünü borclu hiss etmişdir.

XX əsrin 50-ci illərində Türkiyədə idman, xüsusilə futbol azerkeşliyi məsələsində kifayət qədər qüsurlu məqamlar meydana çıxmışdı. Bəzən xəstəlik halına çevrilən futbol azarkeşliyi qarşılıqlı qarşıdurmalara, futbol klubları arasında keçirilən yarışlarda rəqib komanda azarkeşlərinin bir-biriləri ilə kobud rəftarlarına, hətta idmançıları təhqir etmələrinə, fiziki zərər vermələrinə rəvac verirdi. Belə olan təqdirdə, idman cəmiyyət üçün sağlamlıqdan daha çox zərərli vərdişə çevrilirdi. Bütün ölkə gündəminin idman sahəsi olaraq futbolun xeyri və faydasından, baş tutan oyunların həmrəylik cəhətdən müsbət tərəflərindənsə, azarkeşlər arasında yaranan mübahisələrdən bəhs etməsi Əziz Nesini bir ziyalı kimi narahat edirdi. Təsadüfi deyil ki, Əziz Nesin 1960-cı illərdə “Axşam” qəzetində idman müxbiri kimi fəaliyyət göstərərək azarkeşlərin təhlükəli hal almış mübahisələrinə yaxından şahidlik etmişdir. Daha sonra özünün nəşr elədiyi “Zübük” satirik qəzetində bu mövzuda “Zürfəddinə məktublar” başlıqlı yazılar yazmışdır. “Sevgili qardaşım Zürfəddin, son məktubunda “İstanbulda nə var, nə yox, mənə uzun-uzun yaz”, – deyirsən. Vallah, İstanbulda futboldan başqa, bir şey yoxdur. Paroxodda Fənərbağça, marşrutda Qalatasaray, avtobusda Beşiktaş, çayçıda Vəfa, yeməkxanada Qaragömrük... Qadını, kişisi, uşağı-böyüyü, yeddidən yetmişə hamı ancaq bundan danışır. Həftədə 4 gün matç, radioda gündə 3 dəfə futbol...” (Nesin, 2013, s. 11)

1980-ci ildə Bolqarıstanda nəşr olunan “Start” qəzetinə verdiyi müsahibədə qeyd edirdi ki, “olimpiadalarda gülüş və yumorun yeri tamaşaçı stullarında olur. .. İdmanla idmançılar məşğul olur. Bəs idman azarkeşləri nə edirlər? Bax, bu sualın cavabı yumordur. Bir boks, ya da futbol oyununda tamaşaçıları seyr etdinizmi? Bu tamaşaçıların özlərinin xəbərləri belə olmadan filmləri çəkilsəydi,

dünyanın ən komik filmi ortaya çıxardı... Stadionda oturduqları yerdən bağıraraq futbolçulara ağıl verənləri gözlərinizin önünə gətirin; Bundan daha gülməli nə ola bilər? (Nesin, 2013, s. 99)

Əziz Nesin uşaqlıqdan idmana maraq göstərmiş, məktəb illərində güləşlə məşğul olmuş, hətta yarışlarda belə iştirak etmişdir. Lakin idmanın sağlam və gümrah yaşayışa xidmət etməsindən daha çox, azarkeşlərin bir-biri ilə kobud rəftarı nəticəsində zərərli görünməsi Əziz Nesinin satirik qələminin tənqid obyektinə çevrilmişdir. Bir yandan da jurnalist kimi çalışdığı illərdə rastlaşdığı gülünc hadisələr onun yaradıcılığında idman mövzusuna, idman azarkeşliyini xəstəlik halına çevirən insanların həyatına ayna tutmağa gətirib çıxartmışdır. Satirik sənətkar “Futbol kralı” romanını, “İdmançı insanlarıq, vəssəlam”, “Uçuruma gedirik”, “Yarmarka qapıçısı”, “Həmyerlilər matçda”, “Vur-tut bircə Qədri”, “Çox vacib işi var”, “Üç aşağı, beş yuxarı”, “Torları cıran oraq Altan”, “Kötək yeməkdən doymuram” hekayələrini məhz idman mövzusunda yazmışdır.

Əziz Nesin futbol yarışları azarkeşliyini xəstəlik halına çevirən insanların həyatında bunun mənfi təsir və nəticələrini “İdmançı insanlarıq, vəssəlam”, “Həmyerlilər matçda”, “Uçuruma gedirik” kimi hekayələrində yumoristik üslubla tənqid etmişdir.

1958-ci ildə çap olunmuş “Cənab fit” adlı hekayələr kitabında yer alan “Uçuruma gedirik” adlı hekayəsində ilk baxışda yumoristik təsir bağışlayan hadisənin əsasında duran olduqca ciddi, cəmiyyəti narahat edən problemin kəskin satirik qələmlə ifşasını görmək mümkündür. Hekayənin əsas qəhrəmanı maddi sıxıntılar çəkən, ailəsini çətinliklə dolandıran bir ailə başçısıdır. Pulunu ödəyə bilmədiyi üçün evdə işıqları sönmüş, sular kəsilmiş, dərman tapa bilmədiyi üçün xəstə anası ağrıdan qıvrılaraq yata bilməmiş, pəncərə şüşəsi tapılmadığı üçün evə yağış və külək dolmuş, üstəlik, ailənin ehtiyacları üst-üstə yığılmış olduğundan gərgin və kədərlidir. Bir yandan da kirayə pulunu ödəyə bilmədiyi üçün ev sahibi tərəfindən məhkəməyə verilmişdir. Leysan yağışlı bir gündə işə gedə bilməyib dərdini dağıtmaq üçün gəlib oturduğu çayxanada qayğılı və gileyli bir nəfərin “uçuruma gedirik” deyə şikayətlənməsindən onun da özü kimi dərd çəkdiyini güman edib həmsöhbət olmaq istəyir. Bu cüssəli kişinin şikayətlənməsinin səbəbinin bir gün öncəki futbol matçı zamanı azarkeşi olduğu komandaya qarşı hakim “ədalətsizliyi” olduğunu öyrənəndə isə özünü tuta bilməyib ona möhkəm şillə çəkir.

Əziz Nesinin “Kötək yeməyə doymuram” da adlı hekayəsi də eyniadlı kitabında çap olunmuşdur. Bu hekayədə oğlunu futbol azarkeşliyindən qurtarmağa çalışan Salman bəyin özünün də bu xəstəliyə tutulması və hər dəfə matça gedib döyülsə də, bundan əl çəkə bilməməsi yumoristik şəkildə tənqid olunur. “Bu xəstəlik mənə bizim oğlandan keçdi. Eh, anladım, burada təpikləşmək ayıb deyil... çünki hər kəs bir-birini təpikləyir. Həm də heç kəsin qəsdi yoxdur... Səni tanıyıb eləmir, bir düşmənliyi də yoxdur. Adam həyəcanlanıb top deyə sənə vurur” (Nesin, 2015, s. 39).

1957-ci ildə nəşr olunmuş “Kreslo” adlı kitabında “Həmyerlilər matçda” hekayəsi də azarkeş xəstəliyi mövzusundadır. Bu hekayənin qəhrəmanı da “Uçuruma gedirik” hekayəsində olduğu kimi onunla ortaq problemlərdən əziyyət çəkdiyini sanan birisi ilə həmsöhbət olub dərdini bölüşməyə çalışır. Məlum olur ki, tək qayğıları futbol matçına bilet satmaq, oyuna tamaşa etmək arzusudur. Bu hekayənin azərbaycanlı oxucular üçün digər bir maraqlı cəhəti odur ki, görkəmli yazıçı Seyfəddin Dağlının Əziz Nesin satiralarının təsiri ilə qələmə aldığı “Absəteli avsaytdadır” adlı povestində oxşar motivlər vardır. Belə ki, Seyfəddin Dağlının əsərində də buna bənzər şəkildə, Absəteli kinoya bilet almaq adı ilə durduğu növbənin matç bileti almaq üçün olduğunu öyrənir və çətinliklə əldə etdiyi üçün biletini satmaq istəməyib özü xanımı ilə birlikdə stadiona gedir. Nəticədə, Absəteli də azarkeş xəstəliyinə tutulur.

Əziz Nesinin “Həmyerlilər matçda” hekayəsinin qəhrəmanı da aldadılaraq dövrü üçün çətin tapılan türk qəhvəsi almaq adıyla yaranan növbəyə durur və özündən ixtiyarsız stadiona gedib çıxır. Stadionda rastlaşdığı tanışlarının oyuna gəliş səbəbləri isə müxtəlif yumoristik izahlarla gülüş doğurur. Yaşlı bir qadın matça gəliş səbəbini belə izah edir: “Yay gələndə sular kəsilir, İstanbul Kərbəlaya dönür. Mən də uşaqları yığıb matça aparıram. Hərəsinin də əlinə bir butulka verirəm, özüm

də bidon, vedrə, qab götürürəm. Stadionun qapısında toplaşan adamları dağıtmaq üçün yanğınsöndürənlər su fışqırdırlar. Mən də həm uşaqları çimdirirəm, həm də qab-qacağımızı su ilə doldururam. ...Uşaqlar da oyunu seyr edirlər. Matça verdiyimiz pul bidonla alınan sudan daha ucuz başa gəlir" (Nesin, 2013, s. 125).

Əziz Nesinin yaradıcılığına xas xüsusiyyətlərdən biri satirik hekayələrinin bir çoxunda ədibin öz obrazı ilə rastlaşmağımızdır. Ədib bir sıra hekayələrində gecə-gündüz ailəsinin dolanışıq dərdini çəkən, fırıldaqçılar tərəfindən aldadılan, işsiz qalan, idarələri gəzib iş, kirayə ev axtaran, pula ehtiyacı, borcu olan, yeri gələndə özünə gülən kasıb bir Həsən obrazı kimi iştirak edir. Müəllifin həmin hekayələrindən biri "Nitq makinası" kitabında yer alan "Çox vacib bir işi var" əsəridir. Həcmcə çox qısa olan bu yumoristik hekayədə artıq Həsən bəyin də azarkeş xəstəliyinə tutulması göstərilir. Çox vacib bir iş dalınca tələsən Həsən bəyin qarşısına kim çıxsa, mühüm işi olduğunu bildirib ayaqüstü salamlaşır, lakin bir gün öncəsi futbol matçının hansı hesabla bitməsindən xəbər verən tanışını görən kimi yolunu dəyişdirir, çox vacib olan işini unudur və oyun haqqında məlumat almaq üçün tanışıyla çayxanaya gedir.

"Kreslo" (1957) adlı hekayə kitabında yer alan "İdmançı insanlarıq, vəssəlam" adlı yumoristik hekayə tramvay sərnişinlərinin azarkeşi olduqları komandalar arasında baş tutmuş matçın hesabı haqqında başlatdıqları mübahisənin genişlənməsi və kütləvi əlbəyaxa davaya çevrilməsi haqqındadır. Tramvay sürücüsünün də qoşulduğu mübahisədə oyunun şərhindən daha çox, futbol ulduzlarının şəxsi həyatlarını müzakirə mövzusuna çevirən insanlar sonda polis məntəqəsinə aparılırlar.

Əziz Nesin 1965-ci ildə çap etdirdiyi "Sosializm gəlir, geri çəkilin" adlı hekayələr kitabına yenə futbol azarkeşliyinin xəstəlik halına çevrilməsini tənqid etdiyi hekayəni daxil etmişdir. "Vur-tut bircə Qədri" adlı çoxhəcmli hekayədə iki azyaşlı qızı ilə dul qalmış Qədrinin başına gələn tragikomik hadisə təsvir olunur. Qədri anasız qalmış qızlarına baxmaq üçün bir neçə dəfə dayə tutur, dost-tanışa etibar edir və aldadılır. Sonda övladlarını kənddə yaşayan bibisi qızına tapşırır. Bibisi qızı Qədrini kənddə məşhur futbol ulduzu olan Qədri kimi qələmə verərək, onu kəndin varlı ailələrindən birinin qızı ilə evləndirib güzəranını yaxşılaşırmaq istəyir. Kəndə övladlarına baş çəkməyə gələn Qədri nə qədər çalışsa da, futbolçu olmadığını, ömründə ayağının topa dəymədiyini sakinlərə başa sala bilmir. Usta oyunçu kimi məcbur gətirildiyi futbol matçında gülməli vəziyyətə düşərkən və eyni vaxtda radioda həqiqi futbolçu Qədrinin oynadığı oyun şərh edildiyi üçün bibiqızının kələyinin üstü açılır. Qədri isə fırıldaqçı adlandırılaraq döyülür və kənddən qovulur.

Hekayədə insanların amansızlığı, yetim qalmış iki azyaşlı qızın incidilməsi, sonda Qədri kənddən qovularkən uşaqlarının ayaqyalın çölə atılması Əziz Nesinin kəskin satirasının – qara mizahın ifşaedici gücünü görürük. Qədrinin futbol ulduzu hesab edilib oyunlara məcbur aparılması, onun istəmədən düşdüyü gülünc vəziyyətlər isə insanların futbol sevdasını, onların futbol ulduzlarına olan pərəstişinin, azarkeş xəstəliyinin səbəb olduğu gülünc halların yumoristik tənqididir.

## Nəticə / *Conclusion*

Əziz Nesin satira ustası olmaqla yanaşı, xalqının, millətinin rifahını arzulayan və bu amal uğrunda öz öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışan vətənpərvər ziyalı olmuşdur. Əziz Nesin futbol və ümumilikdə idman mövzulu satiralarında idmanın sağlamlıq üçün faydalı bir sahə olmasından daha çox, idmançıların həyatlarını gündəmdə saxlayan, dedi-qodu mövzusuna çevirən, idman yarışlarında bir-birinə zərər verən, ətrafı korlayan, oyun meydançalarına maddi ziyan vuran azarkeş xəstələrini tənqid etmişdir. Eyni zamanda idmanın xalqlar arasında həmrəylik və dostluq münasibətləri yaradan, cəmiyyətə fayda verən bir sahə olmasını arzu etmişdir.

## Ədəbiyyat / *References*

Andaç, F. (2015). *Gülen düşünce, muhalif kimlik: Aziz Nesin.* . İstanbul: İnkılap kitabevi.
Nesin , A. (2017). *Böyle gelmiş böyle gitmez, Yol, Yokuşun başı, yokuş yukarı.* İstanbul: Nesin yayınevi.
Nesin, A. (2013). *Sporcu milletiz vesselam (spor yazıları ve öyküleri).* İstanbul: Nesin yayınevi.
Nesin, A. (2015). *Bay Düdük.* İstanbul: Nesin yayınevi.
Nesin, A. (2015). *Sora sora cennet bulunur (söyleşiler)* . İstanbul: Nesin yayınevi .

# Объекты критики в сатирах Азиза Несина на спортивную тему

**Майа Гасанли**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: mayaaxundova93@gmail.com
ORCID: https://orcid.org/0009-0002-4535-7831

**Резюме.** Азиз Несин один из самых известных мастеров смеха, одаривший турецкой прозой мировую историю литературы. В сатирических и юмористических произведениях посредством своего пера писатель выбрал объектом критики недостатки своего времени в обществе, к которому он принадлежал и более полувека проявлял активную деятельность для его развития. Одной из целей критики общества писатель избрал область спорта, источника здоровья, и в частности футбол, имеющий множество болельщиков. Среди многочисленных тем Азиза Несина в статье исследована тема, касающаяся спорта, и конкретно, отрицательных качеств футбола и его болельщиков. В рассказах Азиза Несина «Мы спортсмены, и точка!», «Идём к пропасти», «Вратарь ярмарки», «Земляки на матче», «Бей-лови, Гадри», «У него важное дело», «Три вниз, пять вверх», «Рвущий сетки Алтан», «Не устаю от колотушки» исследовано, каким образом область спорта, превратившегося из полезного для здоровья занятия в подобие болезни, стала объектом критики.
**Ключевые слова:** Азиз Несин, сатира, юмор, критика, спорт, футбол